21 (1327) 30 may - 5 iyun 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qәzet 1999-cu ildәn çıxır

## UĞURLU TƏRƏFDAŞLIQ MÖVCUD MÜNASİBƏTLƏRİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN ƏLVERİŞLİ MÜHİT YARADIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da alternativ investisiyaların idarə edilməsi üzrə Avropanın ən böyük və nüfuzlu investisiya şirkətlərindən biri olan “CVC Capital Partners” şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul edib.

Ölkəmizdə davamlı inkişaf proseslərinin getdiyini vurğulayan Rolli Van Rappard Azərbaycanın bir çox sahədə əldə etdiyi nailiyyətlərin çox təqdirəlayiq olduğunu bildirib. Qonaq “CVC Capital Partners” şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etməsindən böyük məmnunluq hissi duyduğunu deyərək, gələcəkdə əməkdaşlığın daha da möhkəmlənəcəyinə inamını ifadə edib.

Prezident İlham Əliyev dünyanın qabaqcıl maliyyə qurumları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun “CVC Capital Partners” şirkəti ilə uğurlu tərəfdaşlığını müsbət qiymətləndirərək mövcud münasibətlərin daha da gücləndirilməsi üçün əlverişli mühitin olduğunu bildirib. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini deyən dövlətimizin başçısı qeyri-sabit maliyyə bazarları mühitində də Fondun aktivlərinin artdığını vurğulayıb.

Qeyd edək ki, 1981-ci ildə təsis olunmuş “CVC Capital Partners” şirkətinin özəl səhmlər, özəl kredit, infrastruktur və digər fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 187 milyard avrodur. Dünyanın müxtəlif şəhərlərində 40 ofisi və 850-dən çox əməkdaşı olan şirkətin mərkəzi ofisi Lüksemburqda yerləşir.

## YENİ TİCARƏT MƏRKƏZİ BAKININ MÜASİR VƏ DİNAMİK İNKİŞAFINI ƏKS ETDİRİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Bakıda “Crescent Bay” layihəsinin təqdimatı və “Crescent Mall” ticarət mərkəzinin açılışında iştirak ediblər.

“Pasha Property Management” şirkətinin baş icraçı direktoru Elçin Qədimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya “Crescent Bay” layihəsi barədə məlumat verib.

Sonra dövlətimizin başçısı və birinci xanım “Crescent Mall” ticarət mərkəzinin açılışında iştirak ediblər. “Pasha Malls Group” şirkətinin baş icraçı direktoru Yaman Şahin ticarət mərkəzində yaradılan şərait barədə məlumat verib.

“Crescent Mall” ticarət mərkəzi ənənənin innovasiyalarla qovuşduğu bir məkan kimi Bakının müasir və dinamik inkişafını əks etdirir.

Süni intellektin tətbiqi ilə ticarət mərkəzində müasir və dünyəvi trendlər tarixi və mədəni dəyərlərimizlə də əlaqələndirilib. Bu məqsədlə girişdə qonaqları qarşılayan süni intellekti robot “Leyli” adlandırılıb. Süni intellekt məlumat bələdçisi Leyli dahi Azərbaycan şairi Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasından müdriklik və gözəllik rəmzi olan Leylini simvolizə edir.

“Crescent Mall” ticarət mərkəzi kimi obyektlərin istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialını və vətəndaşlara xidmətin yüksək səviyyədə təşkilini nümayiş etdirir.

## Milli Məclisin komitə iclasında 2024-cü il üzrə dövlət büdcəsinə dəyişikliklər müzakirə edilib



Mayın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

İclasda “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirəyə çıxarılıb.

## AĞDAMDA İRİMİQYASLI QURUCULUQ İŞLƏRİ DAVAM EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Tağıbəyli kəndinin təməlini qoyub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verib.

Bildirilib ki, Tağıbəyli kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 725 ailə - 3018 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, qoyun ferması və üzüm bağları fəaliyyət göstərib. O cümlədən, Qarabağın məşhur seyidlərindən olan Fuğara ağanın ocağı da burada yerləşir.

Qeyd olunub ki, kəndin layihələndirilən ərazisi 255,31 hektardır. Kəndə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı Tağıbəyli kəndinin təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Güllücə kəndinin təməlini qoyub.

Dövlətimizin başçısına layihə barədə məlumat verilib.

Qeyd olunub ki, Güllücə kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 988 ailə - 4003 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, aptek, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, mal ferması və üzüm bağları var idi.

Bildirilib ki, ərazisi 388,44 hektar olacaq kənddə 3992 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Güllücə və İlxıçılar kəndlərinin ərazisindən ibarət olacaq bu kənddə 1042 fərdi ev inşa ediləcək.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Nəmirli kəndinin təməlini qoyub. Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, Nəmirli kəndində 624 ailə - 2515 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, heyvandarlıq ferması və üzüm bağları fəaliyyət göstərib.

Kəndin layihələndirilən ərazisi 211 hektardır. Buraya 3036 nəfərin köçürülməsi planlaşdırılır.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Şotlanlı kəndinin təməlini qoyub.

Dövlətimizin başçısına layihə barədə məlumat verilib.

Qeyd olundu ki, Şotlanlı kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Sakinlər buraya Qubadlı rayonunun Zilanlı kəndindən köç ediblər. Kənddə 606 ailə - 2542 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub.

Bildirilib ki, Şotlanlı və Umudlu kəndlərinin ərazilərini əhatə edəcək bu kəndin layihələndirilən ərazisi 197,4 hektardır. Buraya 3 min nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 750 ev tikiləcək.

## XOCALIYA KÖÇƏN SAKİNLƏRƏ MƏNZİLLƏRİNİN AÇARLARI TƏQDİM OLUNUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər. Dövlətimizin başçısı Xocalı sakinlərinə mənzillərin açarlarını təqdim edib.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəziblər, burada görülən işlər və Xocalı şəhərinin Baş planı ilə tanış olublar.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov və Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, Xocalı şəhərindəki yarımçıq tikili olan yaşayış kompleksi əsaslı təmir edilib. Kompleks 3,34 hektar ərazini əhatə edib.

Sonra dövlətimizin başçısı və birinci xanım kompleksdə yaradılan şəraitlə tanış olublar.

# "Əlavə maliyyə təminatının yaradılması dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirir"



"Böyük Qayıdışa dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin möhkəmləndirilməsi, bir sıra yeni infrastruktur layihələrinin həyata keçirilməsi, beynəlxalq fəaliyyət və tədbirlər üzrə xərclər və digər zəruri əsaslı alışlar üzrə əlavə maliyyə təminatının yaradılması dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirir".

Bu sözləri maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklərlə bağlı layihədə çıxışı zamanı deyib.

Maliyyə naziri bildirib ki, cari ildə inflyasiya tempi azalıb və orta illik inflyasiya 0,7 faiz səviyyəsində qərarlaşıb.

*"Sənədə əsasən, cari ilin ilk dörd ayında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz, qeyri-neft sektoru üzrə isə 7,7 faiz artıb"*, - deyə nazir əlavə edib.

# "Cari il gəlirlərin dinamikası büdcəyə dəyişiklikləri labüd edir"

***"2024-cü il dövlət büdcəsinə dəyişikliklər "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq təklif olunur".***

Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili komitənin mayın 27-də keçirilən iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklərlə bağlı qanun layihəsini təqdim edərkən səsləndirib.



Komitə sədri bildirib ki, əlavə maliyyə təminatının yaradılması üçün cari ilin büdcə gəlirlərinin mövcud vəziyyəti və dinamikası etibarlı zəmin yaradır.

Onun sözlərinə görə, cari ilin ötən dövrü ərzində dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çoxalması, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafına dair ötən ilin sonlarında verilmiş proqnozun yenilənməsi və ümumi daxili məhsulun (ÜDM) əvvəlki proqnozla müqayisədə 3 milyard manat artırılması 2024-cü ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının formalaşmasını və bölünməsini gündəmə gətirir.

# Büdcə gəlirləri neft sektoru üzrə 3,5 faiz, qeyri-neft sektoru üzrə isə 9,3 faiz artırılır

Bu barədə məlumat Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 27-də keçirilən iclasının gündəliyində müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklə bağlı qanun layihəsində öz əksini tapıb.

Sənədə əsasən, 2024-cü ilin təsdiq olunmuş göstəriciləri ilə müqayisədə neft sektoru




üzrə gəlirlər 605 milyon manat və ya 3,5 faiz artırılır ki, bu da 2023-cü ilin icra göstəricisinə nisbətən 387,4 milyon manat (2,1 faiz) azdır. Qeyri-neft sektoru üzrə gəlirlər isə təsdiq olunmuş göstəricilərlə müqayisədə 1 milyard 575 milyon manat və ya 9,3 faiz artırılır ki, bu da 2023-cü ilin icra göstəricisinə nisbətən 1 milyard 504 milyon manat (8,8 faiz) çoxdur.

Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft gəlirlərinin xüsusi çəkisi təsdiq olunmuş göstərici ilə müqayisədə 1,3 faiz bəndi çox (51,1 faiz) təşkil edəcək.

# Cari il üzrə dövlət büdcəsinin gəlirlərində 6,4 faiz artım nəzərdə tutulur

Yenidən baxılmış 2024-cü il dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş 34 milyard 173 milyon manata qarşı 2 milyard 180 milyon manat və 6,4 faiz artırılaraq 36 milyard 353 milyon manat təşkil edəcək.

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 27-də keçirilən iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikasının 2024-cü il dövlət




büdcəsi haqqında" Qanuna dəyişikliklə bağlı qanun layihəsində və büdcə zərfində öz əksini tapıb.

Sənədə əsasən, dövlət büdcəsinin təsdiq olunmuş 36 milyard 763 milyon manat məbləğində xərcləri 2 milyard 944,3 milyon manat və ya 8 faiz artırılaraq 39 milyard 707,3 milyon manata çatdırılacaq.

Dövlət büdcəsinin kəsiri təsdiq olunmuş 2 milyard 590 milyon manata qarşı 764,3 milyon manat və ya 29,5 faiz artırılaraq 3 milyard 354,3 milyon manat təşkil edəcək.

# Xarici ticarət üzrə əməliyyatların həcmi 9,9 milyard dollar təşkil edib

Cari ilin ilk 3 ayı ərzində xarici ticarət üzrə əməliyyatların həcmi real ifadədə 9,9 milyard ABŞ dolları təşkil edib.

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 27-də keçirilən iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklə bağlı qanun layihəsində öz əksini tapıb.

Sənəddə bildirilir ki, həmin vəsaitin 6,2 milyard dollar ixrac əməliyyatlarının, 3,7 milyard dollar isə idxal əməliyyatlarının payına düşüb. Nəticədə xarici ticarət hesabında 2,5 milyard dollar həcmində müsbət saldo yaranıb.

Bununla yanaşı, 2024-cü ilin yanvar-aprel aylarında "Azeri Light" markalı xam neftin bir barelinin orta ixrac qiyməti 87,3 dollara bərabər olub. Bu da 2024-cü ilin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən 27,3 dollar çoxdur.




# SOCAR və Honeywell şirkəti Əməkdaşlıq Sazişi imzalayıb

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "Honeywell" şirkətinin yüksək artım tempi olan regionlar üzrə prezidenti və baş icraçı direktoru Anant Maheşvarinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Neft Şirkətinin yaydığı məlumatda bildirilir ki, görüşdə SOCAR ilə "Honeywell" şirkəti arasında uzunmüddətli və səmərəli əməkdaşlıqdan, bu xüsusda "Star" neft emalı zavodunun (NEZ) inşası, Heydər Əliyev adına neft emalı zavodunun modernləşdirilməsi layihələrində birgə fəaliyyətdən məmnunluq ifadə edilib.

Söhbət zamanı Azərbaycanın "yaşıl enerji" siyasəti və ölkəmizdə bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib.

Tərəflər sənayenin rəqəmsallaşdırılması, dayanıqlılıq, enerji keçidi, insan kapitalının inkişafı istiqamətləri üzrə əməkdaşlıq, həmçinin bərpaolunan enerjiyə həsr olunan beynəlxalq tədbirlərdə birgə iştirak imkanlarını nəzərdən keçirib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə şirkətlər arasında regionun enerji sənayesinin avtomatlaşdırılması və enerji keçidinin inkişafı məqsədilə Əməkdaşlıq Sazişi imzalanıb.

# Belarus Azərbaycanla ticarət dövriyyəsi ilə bağlı hədəfini açıqlayıb

"Azərbaycan və Belarus 2030-cu ilədək ticarət dövriyyəsini mərhələli şəkildə 1 milyard ABŞ dollarına çatdıracaq".

Bunu Belarus Baş nazirinin müavini İqor Petrişenko Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş tədbirdə deyib.

"İki ölkə 2030-cu ilə qədər ixrac və idxal axınını balanslaşdıraraq, qarşılıqlı ticarəti mərhələli şəkildə 1 milyard ABŞ dollarına çatdırmaq barədə razılığa gəlib. Biz istehsalat kooperasiyasını əhəmiyyətli dərəcədə genişləndirmək qərarına gəldik: traktorlarla yanaşı, kommunal, yanğınsöndürmə və digər sahələrlə bağlı texnikaları Azərbaycanda yığacağıq. Buraya Belarus liftləri də daxildir", – o bildirib.

Onun sözlərinə görə, Belarus və Azərbaycan dərman və baytarlıq preparatlarının birgə istehsalının yaradılmasını, həmçinin Azərbaycan azotundan və Belarus kaliumundan qarışıq gübrələr istehsal etməyi planlaşdırır.

"Belarus Qarabağ iqtisadi rayonunun dirçəldilməsinə töhfə verməyə hazırdır. Əsas layihələrimizdən biri Ağdam rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı da daxil olmaqla inteqrasiya olunmuş müasir kənd təsərrüfatı şəhərciyinin yaradılması olacaq. Buraya həm də bu kənd təsərrüfatı kompleksinin işçiləri və onların ailə üzvləri üçün yaşayış və sosial obyektlərin yaradılması daxildir", – İ. Petrişenko qeyd edib.

O əlavə edib ki, Qarabağda Belarus texnikasına xidmət göstərəcək multibrend servis mərkəzinin inşası da planlaşdırılır.

# PAŞA Bank 2023-cü il üçün maliyyə nəticələrini açıqlayıb

"PAŞA Bank 3 illik strateji dövr üzrə fəaliyyət göstərir. 2023-cü il isə sonuncu – 3-cü il olub."

Bu sözləri may ayının 29-da keçirilən mətbuat konfransında PAŞA Bankın idarə heyətinin sədri Cavid Quliyev deyib.

O, bildirib ki, 2023-cü il bizim üçün xüsusi il olub, rekordlarla zəngin il kimi yadda qalıb. Ötən il ərzində bank rekord kredit portfeli, rekord gəlirlər və rekord mənfəətlə yadda qalıb. Cavid Quliyev həmçinin Bankın il ərzində əldə etdiyi nailiyyətlər barədə statistik göstəriciləri də nəzərə çatdırıb: "2023-cü ildə Bank 50,8 mln. ABŞ dolları məbləğində subardinasiya borcları cəlb etmişdir. Digər bir nailiyyətimiz rəqəmsal faktorinq platforması vasitəsilə müştərilərin istifadəsinə verilmiş kredit məbləği ilə bağlı olmuşdur – 13,8 mln. AZN. KOS seqmenti üzrə rəqəmsal modellər vasitəsilə verilmiş onlayn biznes krediti məbləği 298 mln. AZN təşkil etmişdir." Bank, 2023-cü ildə də Azərbaycanın maliyyə sektorunda öz mövqeyini qorumağa və fəaliyyətini daha da genişləndirməyə davam edib.

PAŞA Bankın 2023-cü ildə ümumi kredit portfeli 2,958,173 min manat (2022: 2,825,773 min manat) təşkil etmişdir.

C.Quliyev həmçinin korporativ bankçılıq sahəsində




əldə olunan nailiyyətlərdən də bəhs edib: "AZERCELL rəqəmsal kartda 500 milyondan çox əməliyyat icra olunub. 3 il ərzində VİSA B2B ilə reallaşdırılan əməliyyatların ümumi məbləği 3,2 mlrd. ABŞ dolları təşkil etmişdir." Kiçik və orta sahibkarlıqda 2023-cü ildə əldə olunan uğurlardan danışan İdarə heyətinin sədri "Multilink" funksionallığı və rəqəmsal biznes kartı sahəsində yeniliklərdən bəhs edib.

C.Quliyev fərdi bankçılıq sahəsində qazanılan nailiyyətlərdən də danışıb. Bu sahədə xüsusilə MİDA ilə əməkdaşlığın qurulmasını, nağd kreditin verilməsi müddətinin 6 gündən 1 günə salınmasını, ölkədə ilk dəfə SİMA rəqəmsal imza ilə nağd kredit rəsmiləşdirilməsini, "Miles&Smiles" Türk Hava Yolları ilə növbəti 3 illik eksklüziv əməkdaşlığın təmin edildiyini qeyd edib.

Tədbirdə çıxış edən Bankın İdarə heyətinin üzvü, baş maliyyə inzibatçısı Murad Süleymanov əsas maliyyə rəqəmləri, Komplayns üzrə baş direktor Anar Kərimov həyata keçirilən tədbirlər, Marketinq departamentinin direktoru Zara İbrahimzadə Bankın korporativ sosial məsuliyyət istiqamətində həyata keçirdiyi tədbirlər barəsində məlumat vermişdir.

Tədbirdə həmçinin PAŞA Bankın törəmə bankları olan "PASHA Bank Georgia" SC və "PAŞA Yatırım Bankası" A.Ş.-nin maliyyə nəticələri də açıqlanıb.

# Azərbaycan Gürcüstanın əsas xarici ticarət tərəfdaşları sırasında 5-cidir

Cari ilin birinci rübündə Gürcüstan Azərbaycandan 208,8 milyon dollar dəyərində mal və məhsul idxal edib ki, bu da illik ifadədə 14,5 faiz azdır. Gürcüstanın Azərbaycana ixracı isə ötən illə müqayisədə 26,7 faiz azalaraq 191,94 milyon dollar təşkil edib.

Bildirilir ki, Azərbaycan bu göstərici ilə Gürcüstanın 5-ci əsas ticarət tərəfdaşı olub. Bu il Gürcüstanın Azərbaycanla ticarət dövriyyəsinin həcmi 400,8 milyon dollar təşkil edib ki, bu da illik ifadədə 105,3 milyon dollar və ya 20,8 faiz azdır. Hesabat dövründə Türkiyə Gürcüstanın əsas ticarət tərəfdaşı olub - 964,06 milyon dollar.

İlk beşlikdə Rusiya (836,8 milyon dollar), Çin (497,54 milyon dollar) və ABŞ (479,7 milyon dollar) qərarlaşıb.



# "Azərbaycan-Belarusiya münasibətləri inkişafın yeni mərhələsindədir"

Belarusiya Respublikasının Prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunda Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, iqtisad elmləri doktoru, professor Zahid Məmmədovla görüş keçirilib. Görüş barədə daha ətraflı məlumat üçün "İqtisadiyyat" qəzetinin Zahid Məmmədovla apardığı müsahibəni diqqətinizə çatdırırıq.



***- Xoş gördük, Zahid müəllim. Bilirik ki, sizinlə bu yaxınlarda Belarusiya Respublikasının Prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunda görüş keçirildi. Bu görüş barədə məlumat verərdiniz. Görüşün əsas mahiyyəti və keçirilmə məqsədləri nədən ibarət idi?***

- Bəli, biz Belarusiya Respublikasının Prezidenti yanında Strateji Tədqiqatlar İnstitutunda olduq. Görüş "Belarus və Azərbaycan arasında strateji qarşılıqlı fəaliyyət" mövzusunda ekspert seminarı çərçivəsində baş tutdu. Orada çox ciddi məsələlər, eyni zamanda Azərbaycan-Belarusiya münasibətləri müzakirə olundu. Azərbaycan-Belarusiya münasibətləri inkişafın yeni mərhələsindədir. Görüşdə də əsas məqsəd iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafı idi. Özəlliklə Azərbaycanda həyata keçirilən islahatlar haqqında məruzə olundu. Ölkəmizdə 44 günlük müharibə və əldə olunan zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə cənab Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdırılan quruculuq işləri, Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatı ilə bağlı görülən işlər, bir sözlə, iqtisadi islahatlar, onların nəticələri və uğurlar haqqında məlumat verildi. Xüsusilə Azərbaycanda elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində yaşıl iqtisadiyyata keçid, COP29 barədə çıxışlar oldu.

Xüsusi olaraq qeyd etmək istərdim ki, biz 44 günlük müharibə dövründə Belarusiyanın dəstəyini hiss etdik. Belarusiya hər zaman Azərbaycan xalqının haqlı mübarizəsində yanında olmuşdur.

Ümumi olaraq, görüş çox gözəl keçdi. Biz orada həmçinin Beyin mərkəzinin çox böyük təsiretmə gücünə malik olduğuna şahidlik etdik. Bu mərkəzin çoxsaylı tədqiqatları var və həmin tədqiqatlar hökumətin fəaliyyətində istifadə edilir. Düşünürəm ki, bu həm də çox gözəl örnəkdir.

***- Görüşdə xüsusi olaraq hansı məsələlər əsas müzakirə mövzusu oldu?***

- Görüşdə əsas məsələ Belarusiya-Azərbaycan münasibətlərinin gücləndirilməsi, iki ölkə prezidentləri arasında möhkəm əlaqələrin yaranması idi. Qeyd edim ki, Belarusiya Prezidenti Aleksandr Lukaşenko həmin vaxt Azərbaycanda idi. Azərbaycan və Belarusiya arasında münasibətlərin güclənməsi üçün hansı addımlar atıla bilər? Məsələn, mən orada təklif etdim ki, ortaq bankın yaradılması məqsədəuyğun ola bilər. Bu, çox önəmli məsələdir. Çünki iki ölkə arasında iqtisadi əlaqələri daha da genişləndirmək lazımdır. Bundan əlavə, Belarusiya turizmdə daha çox Azərbaycana üstünlük verir. Bu sahədə də yeni reyslərin açılmasına, yeniliklər edilməsinə ehtiyac var.

***- Biz bilirik ki, Belarusiya Dövlət İqtisad Universiteti ilə ADİU arasında əlaqələr mövcuddur. Siz səfər çərçivəsində Belarusiya Dövlət İqtisad Universitetində də oldunuz. Bu səfər zamanı əlaqələrin gələcək inkişafı ilə bağlı yeni qərarlar qəbul olundumu? Nə kimi perspektivlər nəzərdə tutulur?***

- Belarusiya-Azərbaycan münasibətləri çərçivəsində Belarusiya Dövlət İqtisad Universiteti ilə UNEC arasında 2019-cu ildən müqavilə bağlanmışdır. Onlar UNEC-in həyata keçirdiyi bütün tədbirlərdə iştirak edirlər, eyni zamanda UNEC də onların. Ortaq kitab və məqalələrin hazırlanmasında birgə işlər aparırlar.

Belarusiyanın iqtisadi yönümlü çox əhəmiyyətli jurnalı var. "Белорусский экономический журнал" Belarusiya İqtisad Universitetinin nəşridir. Bizim doktorantlar, elmi tədqiqatçılarımız orada öz araşdırmalarını yayımlayırlar. Əlaqələr çox güclüdür və davam etməkdədir. Hazırda bizim həmin universitetə qəbul olan doktorantlarımız da var. Gələcəkdə bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi sahəsində işlər davam etməkdədir.

***- Belarusiya səfəri çərçivəsində siz elmi-praktik konfransda da iştirak etdiniz. Konfransda sizin üçün əhəmiyyətli məqamlar nədən ibarət idi?***

- Bəli, konfrans "Belarus Respublikasının iqtisadi artımı: qloballaşma, innovativlik, sabitlik" adlanırdı, çox yüksək səviyyədə təşkil olunmuşdu. Konfransda Belarusiyanın qlobal şəraitdə iqtisadi vəziyyəti, yeni dünya çağırışları, iqtisadi əlaqələrin güclənməsi ilə əlaqədar atılması vacib olan addımlar müzakirə olundu. Belarusiya üçün Azərbaycan prioritet ölkələrdən biridir. Konfransda da bu, xüsusi olaraq diqqətə çatdırıldı. Biz də öz çıxışımızda bu məsələlərə toxunduq. Konfransda ən sevdiyim məqamlardan biri qətnamənin qəbulu oldu və o, müvafiq hökumət qurumlarına göndərildi.

Həmçinin, konfransda mənim üçün diqqətçəkən məqamlardan biri orada sırf konfransa məqalə təqdim edən tədqiqatçıların, müvafiq hökumət və biznes nümayəndələrinin iştirakı idi. Tədqiqata aid olmayan şəxslərin orada iştirakı mümkün deyil. Konfransda Belarusiya Elm Fondu da iştirak edirdi və Azərbaycanla bərabər tədbirlərin dəstəklənməsinin təşviqi ilə bağlı fikirlərini söylədi. İnanırıq ki, yaxın vaxtlarda Belarusiya-Azərbaycan əməkdaşlığının genişləndirilməsi ilə bağlı tədqiqat işlərinə vəsait ayrılacaqdır.

***- Zahid müəllim, iki ölkə arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi ilə bağlı görülən və görüləcək işlər barədə nə deyə bilərsiniz?***

- Azərbaycanla Belarus arasında iqtisadi-ticari sahədə əlaqələr yüksək səviyyədə inkişaf edir. Xüsusilə 2017-ci ildə Minskdə Azərbaycan Ticarət Evinin açılması, ölkəmizdə Belarus məhsullarının yaxşı şəkildə tanıdılması qarşılıqlı əlaqələrin inkişafının sübut edən faktlardır. Bu Ticarət Evinin təsisçisi Vasif İsmayılovdur. Biz onunla Belarusiya-Azərbaycan münasibətləri mövzusunda fikir mübadiləsi aparmışıq və bu mövzuda kitab hazırlamağı da düşünürük.

Həmçinin qeyd edim ki, Azərbaycan məhsulları Belarus bazarında özünə ciddi mövqe qazanıb. İki ölkə arasında vergitutmada qarşılıqlı güzəştlərin tətbiqi, investisiya yatırımları istiqamətində çoxsaylı müqavilələr imzalanıb. Xatırladım ki, 2007-ci ildən Gəncə Avtomobil Zavodunda dünyada qəbul edilən Belarus traktorları istehsal edilir. Önəmli məsələ odur ki, bu iki iqtisadiyyat tərəfdaş kimi lazım olan resursların təminatında bir-birini dəstəkləyir. Hazırda farmaseptik məhsulların istehsalı məsələləri ətrafında müzakirələr aparılır.

Düşünürəm ki, kənd təsərrüfatı sahəsində olduqca inkişaf edən Belarusun təcrübəsindən Qarabağdakı layihələrin reallaşdırılması zamanı istifadə etmək əhəmiyyətli olar. Bizim traktorlara, maşınqayırma sənayesinin məhsullarına böyük ehtiyacımız var. Belarusda maşınqayırma, xüsusilə kənd təsərrüfatı avadanlıqlarının istehsalı yaxşı inkişaf edib və dünyada qəbul edilir. Azərbaycanın da kənd təsərrüfatı məhsulları dünyada ən keyfiyyətli məhsullardan hesab olunur və bu sahədən böyük gəlir əldə etmək imkanı var. Bütün bunlar onu göstərir ki, əməkdaşlıq üçün hərtərəfli imkanlarımız var və bu baxımdan, korporativ əlaqələri genişləndirmək lazımdır.

***- Belarusiya səfəri təbii ki, sizin üçün bir çox əhəmiyyətli görüşlərlə yadda qaldı. Bəs, sizin üçün xüsusi olaraq xoş təəssürat yaradacaq hansısa məqamlar oldumu?***

- Bəli, səfər mənim üçün, UNEC üçün, ölkəmiz və hər iki ölkə baxımından çox əhəmiyyətli və önəmli görüşlərlə yadda qaldı. Amma çox düz vurğuladınız ki, mənim üçün xoş təsir bağışlayan xüsusi məqamlar oldu. Bunlardan biri də Belarusiyada dəyərli akademikimiz Ziyad Səmədzadəyə çox böyük rəğbət və sevgi bəslənməsinə şahid olmağım idi. Mən kitabxanalarda da onun kitablarına rast gəldim. Əsas olaraq Z.Səmədzadənin müharibə ilə bağlı hazırladığı kitaba xüsusi maraq var. Bir digər məqam Azərbaycan-Belarusiya münasibətləri, iki ölkə arasında dostluq əlaqələrini daim öz səhifələrində işıqlandıran "İqtisadiyyat" qəzetinə diplom işlərində, tədqiqat əsərlərində istinadlar olunur. Bu, çox sevindirici haldır.

***- Çox sağ olun, Zahid müəllim. Çox maraqlı müsahibə oldu.***

***- Mən də "İqtisadiyyat" qəzetinə və sizə öz təşəkkürümü bildirirəm.***

**Müsahibəni hazırladı:**
**Mətanət Hüseynova**

## ÜDM-in nominal məbləği dürüstləşmiş göstəricidən daha çox olacaq

"İlk dörd ay üzrə Azərbaycanda iqtisadi meyillərin təhlilinə əsaslanaraq, Hesablama Palatası ilin sonunda neft sektoru üzrə ÜDM-in nominal məbləğinin dürüstləşmiş göstəricidən daha çox olacağı qənaətinə gəlib".




Bunu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanunda dəyişikliklin müzakirəsi zamanı deyib.

V.Gülməmmədov vurğulayıb ki, təqdim edilmiş məlumatların təhlili 2024-cü ilin dövlət büdcəsinin yenilənən layihəsində 2024-cü il üzrə icmal büdcəsinin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin 24,5% proqnozlaşdırıldığını göstərir ki, bu da müvafiq göstəricidən, yeni büdcə qaydası çərçivəsindən az da olsa, kənarlaşma olduğunu deməyə əsas verir.

Onun sözlərinə görə, hədəfdən kənarlaşmaya bir neçə amil təsir edib.

*"Bunlardan birincisi odur ki, yenidən baxılan layihə üzrə icmal büdcənin baza xərclərinin artımı icmal büdcənin qeyri-neft gəlirlərinin artımını üstələyib. Maraqlı məqam odur ki, büdcənin faiz xərclərinin büdcədən azaldılması da büdcə qaydasına mənfi təsir göstərib. İkincisi odur ki, qeyri-neft-qaz sektoru üzrə ÜDM-də artım istiqamətində dəqiqləşmə çox cüzi olub"*, - deyə o əlavə edib.

## ÜDM-in 121,3 milyard manata çatacağı proqnozlaşdırılır

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə dəyişikliklər edilib, neftin bir barelinin orta illik ixrac qiyməti 60,0 ABŞ dollarından 75,0 ABŞ dollarına (ilin ötən dövrü üzrə faktiki satış qiymətləri və ilin qalan dövrü üzrə 70,0 ABŞ dolları fərz edilməklə, öncəki proqnoza nəzərən 15,0 ABŞ dolları çox) yüksəldilib.

AZƏRTAC Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, 2024-cü ildə ÜDM-nin 121,3 milyard manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3,0 milyard manat çox), o cümlədən qeyri-neft ÜDM-inin 84,7 milyard manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 0,6 milyard manat çox) çatacağı proqnozlaşdırılır. Yenilənmiş makroiqtisadi proqnoz, dünya neft bazarlarında münbit qiymət dinamikası, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və dövlət büdcəsində əlavə fiskal məkandan istifadə imkanları 2024-cü il üzrə gəlir proqnozuna yenidən baxılması üçün şərait yaradır.

## "Azərbaycanın COP29-a hazırlığı yüksək səviyyədə gedir"

Bunu BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva "Yaşıl artım gündəliyində təhsil" mövzusunda konfransda çıxışı zamanı deyib. O bildirib ki, Azərbaycan dayanıqlı "yaşıl" iqtisadiyyata hazır olmalıdır. *"İqlimlə bağlı bilik və bacarıqlar, qabiliyyət erkən yaşlardan başlanmalıdır. Eləcə də, dəqiq elmlərin daha da gücləndirilməsi, STEAM (Science, Technology, Engineering, Art & Math) təhsilinə gənc qızların cəlbini istəyirik. Daim bu sektorlarla əməkdaşlığa hazırıq. Düşünürük ki, təhsil sahəsində əməkdaşlıq gücləndirilməlidir".*

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl artım gündəliyində təhsil" mövzusunda konfrans keçirilib. Konfransda elm və təhsil naziri Emin Əmrullayev, həmçinin digər dövlət rəsmiləri, millət vəkilləri iştirak edib.

# Захид Мамедов: “Азербайджан является одной из приоритетных стран для Беларуси”





***Состоялась встреча руководства и аналитиков Белорусского Института Стратегических Исследований при Президенте Республики Беларусь (БИСИ) с директором Департамента Организации и Управления Научной Деятельностью Азербайджанского Государственного Экономического Университета, доктором экономических наук, профессором Захидом Мамедовым. Предлагаем вашему вниманию интервью с Захидом Мамедовым.***

**- Расскажите подробнее о встрече с коллегами из Беларуси. Какие темы обсуждались в рамках мероприятия?**

- В ходе беседы эксперты обсудили текущую международную обстановку, обменялись мнениями по вопросам развития мировой экономики, направлениям культурного и научно-экспертного взаимодействия, а также перспективам взаимоотношений между Беларусью и Азербайджаном. По итогам встречи достигнута договоренность продолжить взаимодействие по вопросам, представляющим взаимный интерес.

**- Расскажите пожалуйста об основных целях мероприятия.**

- Основной целью встречи было развитие двухсторонних отношений между двумя странами. В частности, было сообщено о реформах, проводимых в Азербайджане. Следует подчеркнуть, что в рамках объявленного в Азербайджане «Года солидарности зеленого мира» прозвучали речи о переходе к зеленой экономике и COP29. В целом встреча прошла очень хорошо. Мы стали свидетелями того, что «Центр Мозга» имеет большое влияние. В этом центре проводится много исследований, и эти исследования используются в государственной деятельности.

Также я сделал очень интересное предложение относительно развития отношений между двумя странами. Я предположил создать совместный банк который способствовал бы дальнейшему расширению экономических связей между двумя странами.

**- В БГЭУ вы также посетили лекцию. Мы хотели бы узнать об этом больше.**

- Да, с 15 по 17 мая я также посещал курс лекций в БГЭУ. Студенты факультета финансов и банковского дела получили уникальную возможность узнать больше об истории глобального кризиса, его причинах и последствиях, а также углубить свои знания об антикризисной политике. БГЭУ и Азербайджанский государственный экономический университет связывают годы плодотворного сотрудничества и дружбы. Соглашение о сотрудничестве между нашими университетами было подписано в 2019 году. В декабре 2023 года проректор по учебной работе Ольга Анатольевна Морозевич посетила с рабочим визитом учреждения высшего образования в городах Баку и Гянджа Азербайджанской Республики, где приняла участие в переговорах с руководством Азербайджанского государственного экономического университета, а также обсудила с руководством Института контроля систем Министерства науки и образования Азербайджанской Республики возможности проведения совместных научных исследований в сферах логистики и электронной коммерции.

**- Вы также выступили с докладом на пленарном заседании XVII Международной научно-практической конференции «Экономический рост Республики Беларусь: глобализация, инновационность, устойчивость». Хотели бы, чтобы вы об этом рассказали.**

- 16 мая мы посетили ежегодную Международную научно-практическую конференцию «Экономический рост Республики Беларусь: глобализация, инновационность, устойчивость». Мое выступление было посвящено на тему: «Общие проблемы и актуальные вопросы научной деятельности вузов». Конференция была организована на очень высоком уровне. На конференции обсуждалось экономическое положение Беларуси в глобальной среде, вызовы нового мира, необходимые шаги, которые необходимо предпринять в связи с укреплением экономических связей. Азербайджан является одной из приоритетных стран для Беларуси. На конференции это было особо подчеркнуто. Эти вопросы мы также затронули в своем выступлении. Белорусский научный фонд также принял участие в конференции и выразил свое мнение по продвижению совместной деятельности с Азербайджаном. Полагаем, что в ближайшее время будут выделены средства на научно-исследовательскую работу, связанную с расширением белорусско-азербайджанского сотрудничества.

Экономические и торговые отношения между Азербайджаном и Беларусью развиваются на высоком уровне. В частности, открытие Азербайджанского торгового дома в Минске в 2017 году и хорошее продвижение белорусской продукции в нашей стране являются фактами, подтверждающими развитие двусторонних отношений. Учредителем Торгового дома Азербайджана в Беларуси является Васиф Исмайлов. Мы обменялись с ним идеями по белорусско-азербайджанским отношениям, а также думаем подготовить книгу на эту тему.

- Спасибо за интересное интервью.

**Беседу вела:**
**Матанат Гусейнова**

# Агентство по ВИЭ и SMARTNATION подписали меморандум о сотрудничестве



В рамках "Года солидарности во имя "зеленого" мира" между Государственным агентством по возобновляемым источникам энергии при минэнерго Азербайджана (BOEMDA) и платформой человеческого развития "SMARTNATION" 27 мая подписан меморандум о сотрудничестве.

Согласно документу, сторонами будут предприниматься действия в направлении борьбы с изменением климата, в сферах "зеленого" роста, повышения осведомленности граждан о мерах защиты окружающей среды.

# Визит Лукашенко в Азербайджан: главные достижения в сотрудничестве двух стран впереди




Государственный визит президента Беларуси Александра Лукашенко в Азербайджан, кроме переговоров в дружественной обстановке по широкому спектру мировой повестки, ознаменовался еще и тем, что три города нашей страны и Беларуси стали побратимами.

Приветствуя высокого гостя 16 мая на встрече в расширенном составе, Президент Азербайджанской Республики Ильхам Алиев заявил, что в ходе встречи один на один главы государств провели обстоятельный разговор по многим вопросам - и двусторонней повестки дня, и по региональным, международным проблемам, еще раз подтвердили стратегический характер наших отношений.

При этом глава азербайджанского государства подчеркнул, что "мы очень дорожим доверительным, креативным партнерством между нашими странами, которое основано на взаимном уважении, дружбе и сотрудничестве", не преминув отметить, что эти отношения проверены временем и ни у кого не вызывает сомнений, что Беларусь и Азербайджан - два надежных друга.

Президент Александр Лукашенко в ответном слове подчеркнул, что у Беларуси с Азербайджаном действительно нет закрытых тем, наши отношения самые добрые и близкие. Именно в силу этого Александр Лукашенко предложил помощь в восстановлении освобожденных от оккупации азербайджанских территорий. ***"У нас есть определенные технологии, ваши специалисты, министры хорошо знают эти технологии, если они годятся, наша техника может здесь присутствовать и работать"***, - сказал он. Отметим, что президент Беларуси прибыл в Азербайджан по приглашению своего азербайджанского коллеги Ильхама Алиева.

***Многие вопросы заранее согласованы***

Президент Ильхам Алиев в заявлении для прессы отметил, что члены белорусской делегации заведомо прибыли в Баку и провели переговоры с азербайджанскими коллегами. ***"Это еще раз демонстрирует то, как ответственно обе стороны подходили к государственному визиту президента Беларуси - заранее обсудить и согласовать многие вопросы, которые впоследствии выносятся на одобрение глав государств. Думаю, что вот такая эффективная форма сотрудничества наиболее правильная и нацелена на конкретный результат"***, - сказал Ильхам Алиев, заявив, что пригласил белорусские компании активно участвовать в восстановлении Карабахской и Восточно-Зангезурской зон.

У Беларуси очень хороший опыт градостроительства, современные технологии, опыт строительства агрогородков. А поскольку нашей первостепенной задачей является не только как можно скорее вернуть бывших беженцев в родные дома, но и обеспечить их достойной работой, то опыт белорусских специалистов будет весьма кстати.

***"Мы обсудили все вопросы, закрытых тем не было. Это не только техника МТЗ (Минский тракторный завод) - совместное производство, но и совместное производство МАЗовской техники, пожарной техники, совместное производство лифтового оборудования"***, - сказал Александр Лукашенко, подчеркнув, что белорусская сторона готова сотрудничать и в производстве подвижной железнодорожной техники - платформ, цистерн и т.д.

Впрочем, белорусский лидер предложил содействие и в аграрной, и в гуманитарной сфере, и в фармацевтике, и в спорте, проявив себя как истинный друг. В заключение Александр Лукашенко заявил, что на Южном Кавказе появился очень мощный лидер в лице Азербайджана, способный контролировать весь регион. ***"Это уже не только ответственность за Азербайджан - вы уже отвечаете за ситуацию на Кавказе в целом, на что мы - те народы, которые не живут на Кавказе - очень надеемся"***, - резюмировал он.

***Баку - Минск, Гянджа - Гомель, Габала - Гродно***

Отныне у Азербайджана и Беларуси три побратима. И это весьма отрадный факт, свидетельствующий о том, что главные достижения у нас еще впереди.

16 мая при участии Президента Азербайджанской Республики Ильхама Алиева и президента Республики Беларусь Александра Лукашенко состоялась церемония подписания азербайджано-белорусских документов. Среди них Протокол о взаимном применении электронных систем сертификации происхождения товаров; Протокол о внесении изменений и дополнений в Соглашение о сотрудничестве в области карантина и защиты растений от 2 мая 2007 года и Протокол о внесении изменений и дополнений в Соглашение о сотрудничестве в области ветеринарии от 2 мая 2007 года; План мероприятий по развитию сотрудничества в сфере туризма на 2024-2025 годы; Меморандум о взаимопонимании и сотрудничестве в области конкурентной политики, государственных закупок, защиты прав потребителей и рекламной деятельности; Меморандум о взаимопонимании между Агентством развития малого и среднего бизнеса Азербайджанской Республики и Государственным учреждением "Национальное агентство инвестиций и приватизации" Министерства экономики Республики Беларусь" и три меморандума, устанавливающих побратимские отношения между Баку и Минском, Гянджой и Гомелем, Габалой и Гродно.

Сам перечень подписанных документов свидетельствует о том, что Азербайджан и Беларусь, еще раз подтвердив свое нерушимое братство, намерены двигаться вперед. И подписанные документы - лишнее тому подтверждение.

***Лукашенко сделал подарок Шуше***

На следующий день, 17 мая, президенты отправились сначала в Физули, затем в Шушу. В Физули Ильхам Алиев и Александр Лукашенко осмотрели разрушенные места города и ознакомились с его генеральным планом.

Во время пребывания в Шуше Александр Лукашенко подарил городу белорусскую тракторную технику. Президенты также ознакомились с одним из жилых кварталов в восстановленном городе. Лидеры осмотрели в Шуше расстрелянные армянами памятники, побывали в доме-музее Бюльбюля, на Джыдыр дюзю, посетили выставку "Гейдар Алиев и Карабах".

**ОБЗОР газеты "Каспий"**

# İnformasiya texnologiyalarının təhlükəsizlik çalarları və konseptual baxış

*(əvvəli ötən sayımızda)*

***Hücumlardan qorunmağın ən yaxşı yollarından biri ikili identifikasiyanın, yəni ikimərhələli təsdiqləmənin aktivləşdirilməsidir: "Demək olar ki, bütün sosial şəbəkələrdə bu cür təhlükəsizlik metodu mövcuddur. İstifadəçilər mütləq şəkildə bu imkanlardan faydalanmalı və ikili identifikasiyanı aktivləşdirməlidirlər. Belə olan halda onların hesab adları və şifrələri ələ keçirilsə belə, ikinci mərhələdə müxtəlif formada təsdiq tələb edən hesabın başqa avadanlığa köçürülməsi və ya digər əməliyyatlar zamanı istifadəçi artıq aldadıldığını hiss edə bilər. Həmin mərhələdə istifadəçi aldadıldığını hiss etməsə, bu zaman diqqətsizliyinə görə sosial şəbəkə hesabını itirə bilər.***



*Bəhruz Əliyev,*
*İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

Digər narahatedici dələduzluq növü isə, xarici və ya yad nömrələrdən zənglərdir. İlk dəfə zəng gəldikdə smartfon və mesajlaşma applikasiyaları bu məsələni xüsusi ilə istifadəçinin qarşısına çıxarır. Bloklamaq və təsdiq etmək mənasına gələn ifadələrlə açıq göstərir. Gələn zəng və mesaj tanıdığınız şəxsə aid deyilsə və ya şübhəlidirsə, ağlabatan deyilsə, həmin zəng və mesajı bloklamaq mütləqdir.

Əgər gələn mesaj və maillərdə əlavə linklər göndərilibsə, əlavə fayllar sizə təqdim edilibsə, onları əsla açmamalı və həmin mesaj və ya maili bütövlükdə silmək lazımdır.

Mərc oyunları, yarış, lotereya və ya qalib olmaq haqqında gələn hər hansı bir mesaja və ya linkə aldanmamaq, göndərilən linkin həqiqi domen ünvanına diqqət yetirmək lazımdır. Əgər göndərilən mail adresi və link haqqında bəhs edilən yerin rəsmi domen adresi ilə eyni deyilsə, əsla inanmaq və açmaq olmaz. Digər dəqiqləşdirmə üsulu isə həmin müəssisənin qaynar xətti ilə əlaqə saxlayaraq, məlumatı dəqiqləşdirməkdir.

3. Süni intellekt və avtomatlaşdırmanın fərqi, faydalar, risklər və digər...

Süni intellekt avtomatlaşdırmadan fərqli olaraq, düşünən və öyrənən, avtomatlaşdırma təkrarlanan prosesləri avtomatlaşdırmaq üçün istifadə edilən bir texnologiyadır. Ona görə də süni intellekt bəzi hallarda insanı əvəz, yəni insan zəkasını imitasiya edə bilir. Süni intellekt bir çox məsələləri bizim üçün asanlaşdırır. Prosesləri optimallaşdırır, xətaları azaldır və məhsuldarlığı artıra bilir. Eyni zamanda, xəstəliklərin diaqnostikasında, dərmanların kəşfində, fərdiləşdirilmiş müalicə işlərində və onun monitorinqində kömək edə bilir. Süni intellekt, eyni zamanda böyük miqdarda məlumatları təhlil edir və innovasiyaların inkişafına təkan verə bilir. Risklərin idarə edilməsi, strategiyaların hazırlanması, müştərilərin tələblərinin proqnozlaşdırılmasında süni intellekt geniş istifadə olunur:

***O, avtomatlaşdırma proseslərini təkmilləşdirərək, iş yerlərində effektivliyi artıra bilir. Süni intellekt musiqi və film sahəsində də geniş istifadə olunur. Açıq mənbələrdə olan məlumatlarda deyilir ki, son illərdə süni intellektə qoyulan özəl investisiyalar artaraq, 90 milyard ABŞ dollarını keçib. Lakin xüsusi ilə qeyd etmək lazımdır ki, mütəxəssislər bu sahədə etik və təhlükəsizlik aspektlərini də nəzərə alaraq iş aparmalıdırlar. Süni intellekt insan məntiqinin maşın və ya proqram təminatında tətbiqini nəzərdə tutan bir elmdir. Bu sahə imkanlarla yanaşı, təhlükəli məqamları da özü ilə gətirir.***

Süni intellekt və avtomatlaşdırma insanı əvəz etmək potensialına malikdir. Bu, iş yerlərinin itirilməsinə və əmək bazarında dəyişikliklərə səbəb ola bilər. Sistemlər mürəkkəbləşdikcə onların üzərində nəzarəti itirmək riski də var. Süni intellektin alqoritmləri sosial bərabərsizlikləri gücləndirə və müəyyən qruplara qarşı ayrı-seçkilik yarada bilər. Eyni zamanda, süni intellekt məlumatların emalı və analizi üçün istifadə olunur. Bu hal məxfilik məsələlərini və şəxsi məlumatların təhlükəsizliyini təhdid edə bilər. Hərbi və tibbi sahələrdə də istifadə olunan süni intellektin sadəcə müsbət və insanlıq üçün faydalı dəyərlər yaratmasından əmin olmağa ehtiyac var.

Ona görə də xüsusi nəzarət mütləqdir. Bu təhlükəli məqamların idarə edilməsi üçün etibarlı təhlil, təhlükəsizlik tədbirləri və etik standartlar tətbiq edilməlidir. Süni intellektin inkişafı məsələlərin diqqətli şəkildə tədqiq edilməsini və düzgün tədbirlərin görülməsini tələb etməkdədir.

Artıq facebook, instagram kimi bir çox sosial şəbəkələr süni intellketdən istifadə edərək, yaradılmış məzmunları xüsusi olaraq etiketləməyə qərar veriblər. Meta süni intellektdə yaradılmış məzmunlara "Imagined with AI" sözləri əlavə edərək, məzmunun süni intellekt tərəfindən hazırlandığını göstərir. Hələlik bu barədə yanaşma odur ki, video və foto istehsal edən süni intellekt aləti fayla gizli "MetaData" əlavə etsin. Sonradan bu faylları sosial şəbəkələrə əlavə etdikdə, sosial şəbəkələr məzmunun real olmadığını və süni intellekt tərəfindən yaradıldığını təyin edib müvafiq olaraq, isifadəçilərə bildirərək, digər etik tələblərin şərtlərini həyata keçirsinlər.




Bəzi tədbirlər görülsə də, tam həll hələlik yoxdur. Ona görə də istifadəçilərə istifadə etdikləri məzmunları digər etibarlı kanallar vasitəsi ilə dəqiqləşdirib, dezinfomasiyadan yayınmalarını məsləhət görürəm.

"Europol" xəbərdarlıq edib ki, tezliklə dünya elə bir vəziyyətlə üzləşəcək ki, ChatGPT və GPT-4 neyron şəbəkələri vasitəsilə süni intellekt müxtəlif saxta sənədlər, videolar və orijinaldan seçilməyən fotolar yaratmağa başlayacaq. Fırıldaqçılar insanları qəsb etmək və aldatmaq üçün süni intellektdən istifadə edə biləcəklər. Bu neyron şəbəkələri fişinq, dezinformasiya və təbliğat, həmçinin kibercinayətkarlıq üçün istifadə oluna bilər.

"OpenAI" şirkəti mart ayında ChatGPT-ə inteqrasiya olunmuş yeni nəsil təbii dil emalı alqoritmini - GPT-4-ü təqdim edib. Bununla belə, İlon Mask süni intellekt (AI) sahəsində bir sıra digər mütəxəssislərlə birlikdə güclü neyron şəbəkələrin hazırlanmasına moratorium tələb edib, çünki bu sahədə nəzarətsiz proses bəşəriyyət üçün təhlükə yarada bilər. Bu barədə "Future of Life Institute" qeyri-kommersiya təşkilatının saytında dərc edilmiş süni intellekt üzrə ekspertlərin açıq məktubunda deyilir: "Biz bütün süni intellekt laboratoriyalarını ən azı altı ay ərzində süni intellekt sistemləri üzrə təlimləri dərhal dayandırmağa çağırırıq".

***Süni intellektin bir parçası olan neyron şəbəkələri insan beyninin işləmə prinsiplərinə əsaslanan və bənzər çalışma metodundan istifadə edən riyazi modeldir, başqa formada desək, neyron şəbəkələri öyrənmə prosesini daha sürətli edən insan beyninin çalışma üslubuna bənzər "Maşın Öyrənmə" (Machine Learning-ML) alqoritmasının bir növüdür. Yeni nəsil neyron şəbəkələri əvvəlki nəsil neyron şəbəkələrdən mürəkkəbliyi ilə fərqlənir. Əslində yeni nəsil neyron şəbəkələri də əsas etibarilə klassik neyron şəbəkələri və arxitekturaları üzərinə inşa edilmişdir. Eyni zamanda, daha çox məlumat, daha çox verilənlər bazası və daha çox mənbələr tələb edir. Neyron şəbəkələr, əsasən, proqnozlar vermək və qərar qəbul etmək üçün nəzərdə tutulmuşdur.***

Neyron şəbəkələrlə bağlı ilk metod 1970-1980-ci illərdə ortaya çıxmışdır. Kompüterlər gücləndikcə neyron şəbəkələrə maraq düz mütənasiblik təşkil etdi və daha da artmağa başladı. Hal-hazırda neyron şəbəkələr pilotsuz maşınlar, görüntü (face detection) və nitqin tanınması (speech recognition) və təbii dilin işlənilməsi ilə bağlı məsələlərdə geniş istifadə olunur. Neyron şəbəkələri "Maşın Öyrənmə" (Machine Learning-ML)" və "Süni İntellekt" (Artificial Intelligence-AI) üçün çox güclü bir vasitədir. Əsas üstünlüyü verilənlərdən öyrənmək qabiliyyətidir. Daha çox nümunə və məlumat daxil olduqca, inkişaf edirlər.

Neyron şəbəkə maşın öyrənmənin bir alqoritmdir. Məlumatlar xüsusi bir yerdə olmur. İnternetdə və bir çox yerdə olan məlumatları öyrənib, ona verilmiş alqoritm əsasında ortaya nəticə qoyur. Amma bu nəticəni daha anlaşıqlı dilə gətirmək və anlamaq üçün yenə də bir insana ehtiyac var. Neyron şəbəkə alqoritmi ilə öyrədilən və öyrənilən məlumatları insana ən yaxın dildə ortaya qoyan texnologiya süni intellektdir. Texnologiya təhlükəli deyil, əsas onun istifadəsinə xoş niyyətlə yanaşmaq lazımdır. Bununla belə, müəyyən riskləri də ola bilər. İnsanların xüsusi məlumatlarının neyron şəbəkələr vasitəsi ilə öyrənilməsinin qarşısını alan tədbirlər genişləndirilməlidir. Təsdiqini tapmayan məlumatlar təhlükələr yarada bilər. Qərəzli məlumatlar ortaya çıxa bilər. Düzgün idarə olunmadığı təqdirdə, istifadəçilər üçün mənfi nəticələrə gətirib çıxarar.

Məlumatlarının təhlükəsizliyini təmin etmək üçün güclü şifrələmə alqoritmləri və digər tədbirlər tətbiq edilməlidir. "Ağıllı neyron" şəbəkələrinin fəaliyyətində yanlışlıq və təhlükəsizlik məsələlərini, düzgün fəaliyyəti yoxlamaq üçün imtahan və sınaq tədbirləri tətbiq edilməlidir. Bu, fəaliyyətin daha yaxşı idarə edilməsini və təhlükəsizliyin artırılmasını təmin edə bilər. Bütün bu tədbirlər birgə istifadə edilərsə, "ağıllı neyron" şəbəkələrinin fəaliyyətinin düzgün təmin edilməsi mümkündür.

## Paytaxtda tikilən binaların seysmikliyinə önəm verilir




Bakının seysmoaktiv ərazidə yerləşməsi sakinləri hər zaman narahat edən məsələlərdən biri olub. Bəs paytaxtda və regionlarda inşa edilən binalar neçə ballıq zəlzələyə davamlıdır?

Bu aktual məsələ ilə bağlı AZƏRTAC-a açıqlama verən Azərbaycan Memarlar İttifaqının üzvü, əməkdar memar Nəriman İmaməliyev bildirib ki, Bakı şəhəri 8 ballıq seysmik zonada yerləşir.

Onun sözlərinə görə, respublikada 9 ballıq seysmik regionlar da var və buraya Şamaxı rayonunu aid etmək olar.

***"Son 10-12 ildə paytaxtda hündürmərtəbəli binaların tikintisində bu məsələyə çox böyük önəm verilir. Fövqəladə Hallar Nazirliyi və digər müvafiq qurumlar tərəfindən daim konstruktiv yoxlamalar aparılır. Bütün inşaat materialları laboratoriyalarda yoxlanıldıqdan sonra onların istifadəsinə icazə verilir, kommunikasiya məsələlərinə xüsusi diqqət yetirilir. Hətta xaricdən gələn mütəxəssislər digər region ölkələrindən fərqli olaraq Azərbaycanda bina tikintisi sahəsində seysmik problemlərin daha etibarlı və yüksək səviyyədə həll edildiyini bildirirlər",*** - deyə Nəriman İmaməliyev vurğulayıb.

## Azərbaycanın ən iri yükgötürmə gəmisi istismara verilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) donanmasına "Handysize" ölçü tipli ilk gəmi qəbul edilib.

ASCO-dan bildirilib ki, bununla da QSC quru yüklərin daşınmasında yeni seqmentə daxil olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, gəmiyə tarixi torpağımız Xocalının adı verilib.



"Xocalı" gəmisi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri rəhbər tutularaq hazırlanan və ASCO-nun Müşahidə Şurasının qəbul etdiyi gəmiçiliyin strateji inkişaf proqramı çərçivəsində alınıb. Bu istiqamətdə icra olunan işlərin davamı kimi, ASCO "Handysize" ölçü tipli quru yük gəmisinin alınması layihəsinin maliyyələşdirilməsi məqsədilə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq edib. Bank, ASCO-da beynəlxalq prinsiplərə uyğun qurulmuş korporativ idarəetmə və hesabatlılıq sistemlərinin mövcudluğunu, əməliyyatlarda şəffaflığın və sağlam maliyyə vəziyyətinin təmin edilməsini nəzərə alaraq, dövlət zəmanəti olmadan sözügedən layihənin maliyyələşməsi barədə qərar verib. Bununla da, gəminin alınması üzrə maliyyələşmənin 70 faizi Avropa Yenidənqurma və İnkişaf Bankının ayırdığı kredit vəsaiti, 30 faizi isə ASCO-nun daxili imkanları hesabına həyata keçirilib.

## Azərbaycan "Masdar"la yeni layihə həyata keçirəcək

"Enerji keçidi üzrə qarşımızda böyük hədəflər durur".

Bunu energetika nazirinin müavini Samir Vəliyev "Yaşıl artım gündəliyində təhsil" mövzusunda konfransda çıxışı zamanı deyib. "Bir sıra təhlillər apararaq "yaşıl gündəliyi"mizi müəyyənləşdirmişik. Azərbaycanın milli prioritetləri arasında "yaşıl" enerji xüsusi yer tutur. "Masdar" şirkəti tərəfindən icra olunan layihə artıq istifadəyə verilib. Yaxın zamanlarda "Masdar" şirkəti ilə bir meqavat gücündə olacaq yeni layihəni həyata keçirəcəyik", - deyə Samir Vəliyev bildirib. Qeyd edək ki, 2006-cı ildə əsası qoyulmuş "Masdar" şirkəti 40-dan çox ölkədə ümumi qoyuluş gücü 20 qiqavattdan çox olan layihələr icra edib.



## Bu il əməkhaqqı fondu 23 milyard manata çatdırılacaq

"Bizim üçün Dövlət Sosial Müdafiə Fondunda əsas məsələ əməkhaqqı fondudur".

Bunu Milli Məcisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Palatanın sədri Vüqar Gülməmmədov deyib.

O qeyd edib ki, ötən ilin son göstəricisinə görə, əməkhaqqı fondu 21 milyard manatdan bir az artıqdır.

"Amma bu, kiçik rəqəmdir. Bu rəqəm ÜDM-də heç 18%-ə çatmır. Cari ildə bu məbləğin 22-23 milyard manata çatdırılması gözlənilir. Amma bu da kiçik məbləğdir. Bizim üçün ən vacib məsələ əməkhaqqı fondunun ölkə üzrə daha böyük həcmli olmasıdır ki, DSMF o vəsaitdən qidalana bilsin", - deyə Palata sədri əlavə edib.

## «Premium Bank» ASC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| ARMB-də nəgd vəsaitlər və qalıqlar | 171176 | 85912 |
| Digər banklardakı qalıqlar | 38588 | 165351 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 450147 | 411779 |
| Əmlak, avadanlıq və istifadə hüququ olan aktivlər | 9872 | 5632 |
| Qeyri maddı aktivlər | 1665 | 1812 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 1926 | 2085 |
| Digər aktivlər | 6108 | 7378 |
| **CƏMİ AKTİVLƏR** | **679482** | **679949** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| **ÖHDƏLİKLƏR** | | |
| Banklardan və maliyyə təşkilatlarından alınmış kreditlər və depozitlər | 78312 | 42633 |
| Müştərilərdən alınmış depozitlər | 425149 | 460799 |
| digər öhdəliklər | 14364 | 11796 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **517825** | **515228** |
| **KAPİTAL** | | |
| nizamnamə kapitalı | 154601 | 154601 |
| bölüşdürülməmiş mənfəət | 7056 | 10120 |
| **CƏMİ KAPİTAL** | **161657** | **164721** |
| **CƏMİ ÖHDƏLİKLƏR və KAPİTAL** | **679482** | **679949** |

| **MƏNFƏƏT və ya ZƏRƏR digər məcmu gəlir haqqında hesabat** | | |
|---|---|---|
| Faiz gəlirlər | 31695 | 30679 |
| Faiz xərcləri | -11148 | -10574 |
| **Xalis faiz gəliri** | **20547** | **20105** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası(tutulması) | 2401 | -1777 |
| **Xalis faiz gəliri** | **22948** | **18328** |
| haqq komissiya gəliri | 15175 | 14886 |
| haqq və komissiya xərci | -9353 | -7171 |
| xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 2586 | 3118 |
| **Əməliyyat gəlirləri** | **31356** | **29161** |
| Ümumi və inzibati xərclər | -18792 | -18071 |
| köhnəlmə və amortizasiya xərcləri | -2655 | -2240 |
| digər gəlir , xalis | 23 | 82 |
| **MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT** | **9932** | **8932** |
| Nənfəət vergisi xərci | -2876 | -1990 |
| **İL üzrə xalis mənfəət** | **7056** | **6942** |
| İl üzrə digər məcmu gəlir | | |
| **İl üzrə cəmi məcmu gəlir** | 7056 | **6942** |
| Bankın sahiblərinə aid olan,Əsas və azaldılmış bir səhm üzrə mənfəət (hər səhm üzrə AZN ilə ifadə olunur) | 7,03 | 6,91 |

## İtaliya demoqrafik böhran riski ilə üzləşib



2008-ci ildən etibarən İtaliya əhalisinin sayı azalmağa doğru gedir.
Bu ölkə Avropada ən aşağı doğum göstəricisinə malikdir. Hər italiyalı qadın orta hesabla 1,2 uşaq dünyaya gətirir. Əhalinin təbii artımı üçün bu göstərici azı 2 olmalıdır. Vəziyyət indiki kimi davam edərsə, yaxın 50 ildə ölkə əhalisinin sayı 12 milyon nəfər azala bilər. Bu da demoqrafik böhranla nəticələnəcək. Azalma artıq kiçik şəhərlərdə özünü aydın şəkildə göstərir. Bəzi şirkətlər qadınları həvəsləndirmək üçün uşaq dünyaya gətirənlərə böyük həcmdə maddi yardım və aylıq müavinət təklif etsələr də, italiyalı qadınlar bu təkliflərə çox da ciddi maraq göstərmirlər.

## Rusiya azad iqtisadi zonada PUA zavodu tikir

Rusiya Tatarıstanda yerləşən Alabuqa Azad İqtisadi Zonasında yeni pilotsuz uçuş aparatı (PUA) zavodu tikir. Bu barədə Türkiyənin “SavunmaSanayiST” portalı məlumat yayıb.
Saytın məlumatına görə, zavodda ildə 5 mindən çox “Shahed-136” tipli kamikadze PUA istehsalı planlaşdırılır.
Qeyd edilib ki, hazırda İran istehsalı olan “Shahed-136” Rusiya tərəfindən Ukrayna ilə müharibədə aktiv şəkildə istifadə olunur.

## “Ölkə sərhədlərinin sanitariya mühafizəsində qurumlararası koordinasiyanın aspektləri” mövzusunda dəyirmi masa keçirilib



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Sanitar-Karantin Xidmətinin təşkilatçılığı ilə 24 may 2024-cü il tarixində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərində yerləşən Avropa Regional Ofisində “Ölkə sərhədlərinin sanitariya mühafizəsində qurumlararası koordinasiyanın aspektləri” mövzusunda dəyirmi masa keçirilib.
Açılış mərasimində Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, rəis müavini Şahlar Mirqasım, Səhiyyə nazirinin müavini Nadir Zeynalov, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Əziz Şərifov və TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov çıxış ediblər.
Açılışda Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Əziz Şərifov, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov çıxış edərək tədbirin əhəmiyyətindən bəhs ediblər.
Tədbirdə COVİD-19 pandemiyası dövründə dövlətimiz tərəfindən insanların sağlamlığının qorunması, virusun yayılmasının qarşısının alınması, ticarət-təchizat zəncirinin davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən, qazanılan müsbət təcrübədən bəhs olunub.
Gömrük-sərhəd keçid məntəqələrində sanitar-epidemioloji nəzarətin səmərəli təşkili, bu sahəyə cavabdeh olan dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi, malların və nəqliyyat vasitələrinin təhlükəsiz şəkildə hərəkətinin təmin olunması istiqamətində mühüm addımların atıldığı diqqətə çatdırılıb. O da qeyd olunub ki, hazırda ölkə sərhədlərinin sanitariya mühafizəsinin təşkilində iştirak edən qurumların əməkdaşlığının genişləndirilməsi, nəzarətin gücləndirilməsi və bu sahədə aparılan işlərin təkmilləşdirilməsi diqqət mərkəzindədir.
Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasımın moderatorluğu ilə keçirilən tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Sanitar-Karantin Xidmətinin rəisi Surxay Məmmədov “Ölkə sərhədlərinin sanitariya mühafizəsində qurumlararası koordinasiyanın perspektivləri”, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və Xəstəliklərə Nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova “Azərbaycan Respublikasında yoluxucu xəstəliklərlə mübarizədə Beynəlxalq Tibbi Sanitariya Qaydalarının (2005) tətbiqi”, TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva “Ölkə sərhədlərinin sanitar mühafizəsində TƏBİB-in rolu və koordinasiya məsələləri”, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin İdxal-ixrac şöbəsinin müdiri Əkbər Əliyev “Sərhəddə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində beynəlxalq təcrübə, ölkəmizdə bu sahədə aparılan işlər, əldə edilmiş nailiyyətlər və perspektivlər”, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndilinin əməkdaşı Cəvahir Süleymanova “Beynəlxalq Tibbi Sanitariya Qaydaları (2005) çərçivəsində ölkəyə giriş nöqtələrində Ümumdünya Səhiyyə Təşkilatı və ölkədaxili qurumların əməkdaşlığının koordinasiyası” mövzusunda məruzələr ediblər. Daha sonra tədbir iştirakçıları mövzularla bağlı fikir mübadiləsi aparıblar.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

## Norveç rusiyalı turistlərin ölkəyə girişinə qadağa qoyub

Norveç Ukraynada davam edən müharibə səbəbindən rusiyalı turistlərin ölkəyə girişinə qadağa qoyub.
Qüvvəyə minən qərara əsasən, turizm və digər “birinci dərəcəli əhəmiyyət daşımayan” məqsədlərlə Norveçə səfər etmək istəyən Rusiya vətəndaşlarına viza verilməyəcək. Lakin qohumlarını ziyarət etmək, işləmək və ya təhsil almaq məqsədilə ölkəyə gəlmək istəyənlər üçün istisnalar edilə bilər.



Qərar digər Şengen ölkələrindən viza alan şəxslərə də şamil olunacaq. Rusiyanın Oslodakı səfirliyi Norveç hakimiyyətinin qərarını qeyri-dost və siyasi motivli ayrı-seçkilik adımı adlandırıb.
Xatırladaq ki, Norveç 2022-ci ilin sentyabrında Rusiya ilə sadələşdirilmiş viza rejimi barədə müqavilənin fəaliyyətini dayandırıb.

## Fransa Ukraynaya yeni silahlar göndərəcək

Fransa və Ukraynanın hərbi nazirləri Kiyevə Parisin yeni silahlarının tədarükünü müzakirə ediblər.
Bu barədə Fransanın silahlı qüvvələr naziri Sebastyen Lekornyu “X” sosial şəbəkəsində yazıb.
Məlumata görə, Sebastyen Lekornyu və Ukraynanın müdafiə naziri Rustüm Umerov, Fransa Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Tyierri Burkarın Ukraynaya səfəri nəticəsində Kiyevə özüyeriyən artilleriya qurğularının və raketlərin tədarükünü müzakirə ediblər.



“Söhbət “Caesar” özüyeriyən artilleriya qurğuları, hava hücumundan müdafiə vasitələri və uzun mənzilli SCALP raketlərindən gedir”, – Lekornyu qeyd edib.

## Ukraynanın dövlət borcu açıqlanıb

Ukraynanın dövlət və dövlət zəmanətli borcu aprelin sonunda 6,0104 trilyon qrivna (151,5 milyard dollar) təşkil edib.
Trend xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə Ukrayna Ali Radasının deputatı Daniel Qetmantsev teleqram kanalında məlumat verib.



O qeyd edib ki, aprel ayında Ukraynanın dövlət borcunun həcmi 1,5% artıb.
"Aylıq artım daxili bazarda borclanma və “Ukrayna Facility” proqramı çərçivəsində Avropa İttifaqından 1,5 milyard avro tranşın alınması ilə bağlıdır", - deputat yazıb.

## Avropada ilin əvvəlindən bəri ilk dəfə min kubmetr qazın qiyməti 400 dolları ötüb

Niderlandda yerləşən Avropanın ən böyük TTF Mərkəzinin indeksinə görə, iyun ayında bağlanan ən yaxın fyuçerslər hazırda 405 dollar səviyyəsindədir. Əvvəlki günə nisbətən onların artımı 5 faiz təşkil edib. Mayın 22-də min kubmetr qazın qiyməti 385,6 dollar olub.






**Azəri Light markalı neftin bir barelinin 22 – 29 may tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500